595.732.15

# AZƏRBAYCANDA *NOSEMA CERANAE* TƏHLÜKƏSİ

**QAZİ R.C.**
*AMEA, Zoologiya İnstitutu*
*r.aliyeva@hotmail.com*

**Abstract:** The study was conducted to determine the prevalence of Nosema ceranae, a disease that has recently spread in various regions of Azerbaijan (Guba, Gusar, Shabran, Astara, Lankaran, Masalli, Bilasuvar, Jalilabad, Agsu, Ganja and Gadabay). Research has shown that N.ceranae has the highest prevalence in Astara, Lankaran, Guba and Gusar.
***Keywords:*** *disease, Nosema apis, Nosema ceranae, Azerbaijan*

Arıçılıq Azərbaycanda iqtisadi əhəmiyyətə malik olan sahələrdən biridir. "Arıçılıq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq arıçılıq sahəsində rəsmi statistika materiallarının istehsalını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən təşkil olunmuş statistik müşahidənin nəticələrinə görə 2018-ci ildə 30474 təsərrüfatda mövcud olan 501,0 min arı ailəsindən 4993,9 ton bal, 98,6 ton mum, 9,9 ton vərəmum, 7,7 ton güləm və 400,8 kq arı südü əldə olunmuşdur. Təsadüfi deyildir ki, əvvəlki illərlə müqayisədə 2018-ci ildə arı ailələrinin sayı 229,3 min, bal istehsalı isə 1950,8 ton artmışdır [1].

Məhsuldarlığın artıb - azalması iqlimdən, arılara qulluqdan, zərəvericilərin və xəstəliklərin yoluxma həddindən və s. kimi bir sıra amillərdən asılıdır. Azərbaycanda zərərvericilərdən ən çox rast gəlinən varratoz adlandırılan gənədir. Xəstəliklərdən isə nozematoz, iflic virusu, deformasiya qanad virusu kimi bir sıra viral, bakterial və göbələk xəstəliklərinin adlarını çəkmək olar.

Azərbaycanda son illər ərzində geniş yayılma göstərən nozematoz xəstəliyin iki növü vardır. *Nosema apis* və *Nosema ceranae*. Keçən əsrin son illərində bir sıra mütəxəssislər öz tədqiqatlarında *Nosema apis*-in Azərbaycanda varlığı və yayılması haqda məlumat vermişlər. Lakin, son zamanlar aparmış olduğumuz bir sıra tədqiqatlarda *N.apis*-lə yanaşı *N. ceranae*-nın geniş yayıldığı qeydə alınıb. Hətta *N.ceranae*-nın yayılma həddi *N.apis*-i keçmişdir.




**Şəkil 1.** Şimal Şərq bölgəsinin arıçılıq təsərrüfatlarında
*Nosema ceranae*-nın yayılması (faizlə).

Tədqiqatlarımız zamanı Quba, Qusar, Şabran, Astara, Lənkəran, Masallı, Cəlilabad, Biləsuvar, Ağsu, Gədəbəy, Gəncə və Qax rayonlarının arıçılıq təsərrüfatlarından müxtəlif vaxtlarda (yaz və payız aylarında) arı nümunələri toplanaraq nozematoz xəstəliyinin yoluxması və növü analiz edilərək təyin olunmuşdur. Növ təyini üçün nümunələr Türkiyəyə göndərilərək PZR analizi edilmişdir [2, 3].

Tədqiqatlar nətiəsində Astara, Lənkəran, Quba və Qusar rayonlarında *N.ceranae*-nın daha çox yayıldığı qeydə alınmışdır (Şəkil 1 və 2).

*N.apis* arılarda ishal, iştahın azalması, qarıncıq (abdomen) hissədə şişkinlik və həmin nahiyyənin yağlı və rənginin tündləşməsi kimi halları özündə birləşdirərərk təzahür edir. Lakin, *N.ceranae* da bu hallar baş vermədən xəstəlik öz təsirini göstərir. Arılar nektar toplaya bilmir və ya nektar, çiçək tozu toplamaq üçün getdikləri yerdən qayıtmırlar, yerdə sürünmə kimi hallar müşahidə olunur, arı ailəsinin sayı azalır, sürfə mərhələsindəki arılar ac qalaraq ölür və nətiədə arı ailəsi məhv olur.




**Şəkil 2.** Cənub bölgəsinin arıçılıq təsərrüfatlarında
*Nosema ceranae*-nın yayılması (faizlə).

Nozematoz xəstəliyinə qarşı mübarizə yollarından ən vacibi profilaktik tədbirlərin görülməsidir. Xəstəliklə mübarizə aparmaqdansa xəstəliyin qarşısını almaq daha asan və daha təsir edicidir. Profilaktika üçün arıları yazbaşı və payızda bal süzümündən dərhal sonra şərbətlər hazırlayıb içərisinə müxtəlif bitkilərin (acı yovşan, kəklik otu, nanə və s. kimi) dəmləmələrini qataraq arılara vermək olar.

Xəstəlik zamanı isə tərkibi təbii maddələrdən ibarət olan nosestat preparatından, dəmləməli şərbətlərdən və yaxud təbii turşulardan (oksalat və qarışqa turşusu kimi) istifadə etmək olar.

## ƏDƏBİYYAT

1. URL - https://www.stat.gov.az/news/index.php?id=4139
2. Utuk A.E., Aliyeva R., Girisgin A.O., Guven Gokmen T., Ozuicli M. and Aydın L. First molecular detection of Nosema ceranae in Azerbaijan, Journal of Apicultural Research, 2019, 58 (4)
3. Qazi R.C., Əhmədov B.Ə., Qazi S.Q., Şahverdiyeva Z.B., Nərimanova V.S., Azərbaycanın Cənub bölgəsində nozematoz xəstəliyinin vəziyyəti, 2018, 10 (1), s.36-41.